*R.Kərimov. Məhəmməd ağa Müctəhidzadənin həyatından səhifələr*
*// Əlyazmalar yanmır, 2019, № 2 (9), s.40-46.*

UOT: 82.0

**Raqub Kərimov**
*filologiya üzrə elmlər doktoru, baş elmi işçi,*
*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Bakı ş. İstiqlaliyyət küç. 26*
*e-mail: ragubkerimov@yandex.ru*

# MƏHƏMMƏD AĞA MÜCTƏHİDZADƏNİN HƏYATINDAN SƏHİFƏLƏR

*Məhəmməd ağa Müctəhidzadə XIX əsrin sonları və XX əsrin birinci yarısında Qarabağ ədəbi mühitində yetişən görkəmli ədəbi şəxsiyyətlərdən, xalq içərisində nüfuzu olan ziyalılardandır. Onun həyat və yaradıcılığı haqqında əlimizdə müəyyən məlumat olsa da, təvəllüd tarixi hələ də mübahisəli qalaraq tam dəqiqləşdirilməmişdir. Tədqiqatçılar tərəfindən onun müxtəlif tarixlərdə (1867, 1875) anadan olduğu göstərilir ki, bunların dəqiqləşdirilməsi vacibdir.*

*Şairin 1995-ci ildə kiril əlifbası ilə nəşr edilmiş "Riyazül-aşiqin" əsərində (1.3) onun 1867-ci ildə anadan olduğu göstərilir. Bu tarix onun pasportundan götürülmüşdür. Həmin sənəd 1943-cü ildə Bakı şəhəri, 3 saylı polis şöbəsi tərəfindən verilmişdir. Əldə belə bir sənədin olmasına baxmayaraq tədqiqatçı alim Nəsrəddin Qarayev onun 1867-ci ildə deyil, 1875-ci ildə anadan olduğunu qeyd edir (2. 156; 3.234). Başqa bir mənbədə, şairi şəxsən tanıyan və ona ehtiramla yanaşan Mir Möhsün Nəvvabın təzkirəsində verilən məlumatda da şairin təvəllüd tarixi konkret deyil, təxmini olaraq göstərilir.*

***Açar sözlər:*** *Müctəhidzadə, Riyazül-aşiqin, Qarabağ, Şişə, Xəlil paşa.*

**Giriş**

*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda Müctəhidzadəyə aid bir neçə əlyazma mühafizə olunur. Qeyd etmək lazımdır ki, bunların hamısı avtoqraf nüsxələrdir. Onlardan birində, Fr-1644 şifrli əlyazmada şairin tərcümeyi-halı ilə bağlı olduqca maraqlı məlumatlar yer alır. Həmin məlumatların öyrənilməsi ədibin həyatı ilə bağlı bilgilər verməklə yanaşı, Qarabağ ədəbi mühitinin bəzi naməlum tərəflərinin öyrənilməsi baxımından da əhəmiyyətlidir.*

Fr-1644 şifrli əlyazmadan Müctəhidzadə özü haqqında yazır: "...nami-namım Məhəmməd və ismi-pedərim Mirzə Sədray və təxəllüsüm "Müştəri" və müvəllidü mənşəim Şuşa şəhəridir ki, haman diyari-minuasaridə tarixi-hicriyənin min iki yüz doxsan.... sənəsində, rəbbülmövlud ayının on ikinci günündə ki, ibarət olmuş ola yövmi-mövludi-məsudi-Həzrəti-Xətmül-ənbiya əleyhitəhiyyə vəssəmavati-sənadən kətmi-ədəmdən aləmi-vücudə qədəm qoymuşam".

Göründüyü kimi, burada şairin adı, atasının adı, təxəllüsü, doğulduğu yer və həyatının müəyyən məqamları haqqında verilən məlumatlarla yanaşı, təvəllüd tarixi də göstərilir. Lakin əlyazmada müəllif tərəfindən yol verilmiş cüzi bir qeyri-dəqiqlik sonralar onun təvəllüd tarixinin dəqiq müəyyənləşdirilməsinə mane olmuşdur. Burada rəqəmlə deyil, sözlə qeyd olu-

nan "min iki yüz doxsan..." sözündən sonra növbəti rəqəmi ifadə etmək üçün mənbədə boş yer saxlanılmışdır ki, bu da bizdə şairin konkret olaraq 1290-cı ildə doğulması fikrinə qarşı şübhə yaradır. Əlimizdə başqa bir fakt, yaxud nümunə olmadığı üçün bu məlumata əsaslanaraq onun 1290-cı ildən əvvəl deyil, məhz ondan sonra dünyaya gəldiyini qəti şəkildə, söyləyə bilərik. Belə olduqda, şairə 1943-cü ildə verilmiş pasportundakı tarixin (1867) düzgünlüyünə şübhə yaranır. Öz dəsti-xətti ilə yazdığı bu mənbədəki məlumatı əsas götürdükdə şairin təqribən 1871-1873-cü illərdə anadan olduğunu gümanla söyləyə bilərik.

Balaca Məhəmməd çox erkən – hələ 4 yaşında olarkən hər iki valideynini itirir. O öz xatirələrində yetim qadığı həmin illəri belə təsvir edir: "...dörd sinndə ikən... xaliqi-züliqtidardan beş günün zərfində əhli-xanəmizi səqirən və kəbirən mərəzi-mütəbəqəyə düçar edərək əb və ümməmizi əbədi olaraq əlimizdən alıb əqdi-süræyyətək bir yerə cəm olmuş külfətin silki-cəmiyyətin qıraraq "Bənatül-nəş" kibi hər birimizi bir yanə pərakəndə və əfkəndə etdi"(4. 2[a]).

Bu hadisədən sonra qohum-əqrəbaları yetim qalmış uşaqları himayələrinə götürürlər. Balaca Məhəmməd də özündən üç yaş böyük qardaşı Yəhya ilə birlikdə Hacı Məhəmməd Hüseyn Qaffarzadə adlı qohumlarının qəyyumluğuna verilir.

Camaatın məsləhəti ilə ailənin böyük oğlu Əbdürrəhman təhsil almaq üçün Təbrizə göndərilir. Bir müddət sonra o, qohumlarından xahiş edərək kiçik qardaşı Məhəmmədi Təbrizə, öz yanına gətirtdirir. Məhəmməd burada, qardaşının yanında on bir il təhsil alır. Lakin illər keçəndən sonra məlum olur ki,Təbrizin havasını götürə bilmir və Şuşaya qayıtmaq məcburiyyətində qalır.Təbrizdə olarkən Məhəmməd, ərəb və fars dillərini mükəmməl öyrənir, Nizamidən, Sədi və Hafizdən tərcümələr etməyə başlayır. Onun istedadlı bir gənc olması tezliklə Şuşa ictimaiyyətinə məlum olur. Məhəmməd Şuşada olarkən təhsilini böyük qardaşı Əbdürrəhmanın yanında davam etdirir. Artıq 15 yaşında olarkən cəmiyyətdə baş verən hadisələr onu düşündürməyə başlayır. Bu hadisələrin dərinliklərinə nüfuz etdikcə onun əsl mahiyyətini anlayır, sevgili vətəninin zəlalət günə düşməsində mühüm rol oynayan kimsələri yaxından tanımağa başlayır: "Qərəz, on beş sin ki, insan üçün bəhbuheyi-cavanlıq və əyyamieyşü kamrandır, Yusif Züleyxaya, Vamiq Əzraya, Məcnun Leylaya məhəbbət yetirdiyi kimi, məni-sərgəştə də vətən namında bir dilbəri-zibaya giriftar oldum. Rahi-eşqində rahimərarətimin səbəbi isə Fironi-zaman, Şəddadi-dövran Nikolay ki, tüğyan etməkdə məşhuricahan olmuşdu, geniş dünyanın altıda bir hissəsi ona darlıq edərək başqa hissələrini də udmağa təşəbbüs etdi. Anın bu təşəbbüsü isə mənim sevgili yarımın fəlakətinə mucib oldu" (4. 2[a]).

Məhəmməd ağa hələ erkən yaşlarında ictimaiyyətin dərin hörmətini qazanmış və müasirlərinə örnək olmuşdur. Onu yaxşı tanıyan, nəslinə, nəcabətinə yaxından bələd olan Qarabağın tanınmış ziyalısı Mir Möhsün Nəvvab özünün "Təzkireyi-Nəvvab" əsərində yazırdı: "Cənab Məhəmməd ağa günahları bağışlanan qarabağlı Mirzə Sədray Müctəhidzadənin oğludur və o, Şuşada dünyaya gəlmişdir. Ərəbcə, farsca və türkcə savadı var. Xoşsurət, xoş xasiyyətli, xoşsimalı və comərd təbiətli bir cavandır. Çox hörmətli cənab Əbdürrəhman ağa Saninin qardaşıdır. Müəəzileyh çox millətpərəst, millətpərvər, namuslu, qeyrətli bir şəxsdir. Yaxşı (mətin) və məlahətli (abdar) şeirləri sevir, özü də hərdən-hərdən şeir yazır. İndi şeirləri dağınıqdır və aşağıdakı şeirlər o cənabın şeirləridir.Təxəllüsü "Müştəri"dir (5.186).

Əlbəttə, Nəvvabın bu təqdimatından sonra Məhəmməd ağa haqqında fikir söyləmək, onu xarakterizə etmək yersiz olardı. Lakin onu da xatırlatmaq lazımdır ki, Məhəmməd ağa passiv vətənpərvər olmamış, vətənə olan sevgisini öz əməli işi ilə təsdiq etmiş, onun yolunda dəfələrlə həyatını təhlükə qarşısında qoymuşdur. O, bir qrup vətənpərvər insanları öz ətrafına toplayaraq xalqının, millətinin rifahı naminə məşəqqətli yollar keçərək kömək üçün qardaş türk xalqına müraciət etmiş və əsgəri qüvvələrin Qarabağa gətirilməsində mühüm rol oynamışdır. Vətən, xalq naminə çəkdiyi əzab-əziyyətlər şairi sarsıda bilməmişdir. Türkiyəli dostları, orada yaşayan bacısı və Türkiyədə böyük nüfuz sahibi olan kürəkəni şairə Türkiyədə

qalmağı, orada hər cür qayğıdan uzaq, firavan həyat keçirməyi təklif etsələr də, şair buna razı olmur. O, xatirələrində yazır: "Yeznə və həmşirə çox sözlər danışdılar və mənə dedilər ki, vətəndən tərki-əlaqə qıl, gəl İstanbulda olan üç-dörd dəst xanəmizdən hansı birin xahiş edərsən onun qəbaləsini isminə çevirək. Həqir isə cavabında şəhəri bir xanəyə, xərməni bir danəyə, vətən namusun bacı-qardaş, ata-anaya dəyişməkmi olar?–deyə, sözlərinin qarşısına bir səddi-mədid çəkdim" (4.23[a]).

Qarabağda baş verən hadisələrin, eləcə də çarizmin bu regionda apardığı ikili siyasətin mahiyyətini bütün aydınlığı ilə dərk edən Məhəmməd ağa sövqi-təbii olaraq tezliklə təcrübəli bir siyasət adamına çevrilir. Onun böyük qardaşı Əbdürrəhman ağa çar məmurlarının nəzarətində olan mütərəqqi ruhlu ziyalılardan biri idi. Buna görə də istər Əbdürrəhman ağa, istərsə də onun qardaşı Məhəmməd ağanın hər bir hərəkəti izlənilir və mütəmadi olaraq onlar haqqında lazımi yerlərə məlumat çatdılırdı: "...bəzi əhli-fəsad o bədnəhada (vali nəzərdə tutulur - R.K.) bəradərim Ağa Əbdürrəhman haqqında nahaq sözlər quraşdırıb söyləmişdilər. Mütəsərrifi-məzkur əsassız sözlərə bavər edib də Gəncə vasitəsilə Tiflisə məlumat verir. Fövri namestnikin əmri ilə bəradərimi tutmaq üçün bir jandarma korenalı göndərilir. Jandarma isə gəlib şəhərin erməni hissəsində vaqe olan Mərdi namın mehmanxanasında mənzil edib bu fikrə düşür ki, haman gecə, yaxud sabahı bəradərimi ehzar edib cəddimiz Ağa Əbdürrəhimi təhtül-hifz surətdə Tiflisə apardıqları kimi, eyni fikri bəradərim haqqında icra etsinlər" (4.4[a]). Lakin korenalın təsadüfən həmin gecə Şuşanın tanınmış ziyalılarından olan İsgəndər bəy Rüstəmbəyovla görüşməsi nəticəsində şairin qardaşı böyük bir fəlakətdən xilas ola bilir. İsgəndər bəyin onun ailəsi və özü haqqında söylədiyi xoş sözlər korenalı fikrindən daşındırır və hətta üzr istəmək üçün ertəsi gün dustaqxanaya gəlir və Əbdürrəhman haqqında verilən danosların əsassız olduğunu söyləyərək, onu azad etdirir. Fürsəti fövtə verməyən korenal sonda tam ehtiyatla ona "izhar edir ki, yarım milyon para sizə təfəviz edərik, əgər Qarabağ toprağında bir sünnü-şiə davası əmələ gətirsəniz" (4. 4[a]).

Əbdürrəhman onun təklifini qəbul etməyərək müəyyən bəhanələrlə canını qurtarsa da axıra qədər onların nəzarəti altında yaşadı. Millətlərarası nifaqı qızışdırmaq, günahsız insanların qanını tökmək üçün müxtəlif üsullara əl atan çar məmurları tezliklə istədiklərinə nail oldular: "Məxfi qalmasın ki, atəşi-şərarət və nari-şeytənət Nəmurudi-əsr tərəfindən mənim Xəlilim olaan vətənin xürrəmi ömrümə uruldu isə də, lakin onun naxələf övladı həman nari-fəsadı xamuş etməyib də şöləvər olduğu zaman damənəfşan etməkdən geri qalmadılar. Sülh tərəfdarları olan övladlar isə qanlı göz yaşı ilə həman atəşi söndürmək istədilərsə də, ona müvəffəq ola bilmədilər. Yəni ki, davadan istifadə edib də qana susuzduyan cəlladlar həmin nari-fəsadın ətrafü əknafına çıraq başına muzi heyvanlar yığıldığı kimi cəm oldular, su bulandırıb balıq dutan ovçular kimi ara qarışdırıb qan tökmək ilə nəfbərdar olmaqlığa başladılar"(4. 4[b]).

Azğınlaşmış çar məmurları törətdikləri qanlı cinayətlərini ört-basdır etmək üçün ilk növbədə onların siyasətinə yaxşı bələd olan insanları aradan götürərək cəmiyyətdən, ictimaiyyətdən təcrid etməyi özlərinə başlıca vəzifə hesab edirdilər. Təhlükə Məhəmməd ağanın da başının üstünü almışdı. Bunu yaxşı hiss edən şair bir müddət kənarda, ucqar bir yerdə yaşamaq qərarına gəlir: "Qərəz, həqir də təhdid olmuşlar cümləsindən olduğu üçün 1219-cu ilin axırlarında müvəqqəti olaraq əhlü əyalı vətəndə buraxıb, aşiyanəsi dağılmış quşlar kibi ətrafi-şəhərdə həyəcan ilə dolaşmağa başladım. Axirüləmr, Hacılar köyü gözəl və bibədəl bir mövqe olduğu üçün o yerdə qəfəsə bənzər bir külbə bina qılıb məlul halda vəqt keçirməyə məşğul oldum" (4. 4[b]).

Lakin Şuşanı bütün varlığı ilə sevən şair onun həsrətinə dözə bilmir və heç bir təqibdən qorxmayaraq yenidən oraya qayıdır. Artıq Şuşada başqa bir məmur – "tülkü sifətli korenal Qalaşapov" hökmranlıq edirdi. O, "zahirən islahi-mabeyn üçün küllü miqdarda müsəlləh qüvvələrlə bəlayi-naghan kimi Şişeyi-pürəndişəyə varid olmuşdu". Məkrli niyətini tam həyata keçirmək üçün "sülhsevər" olan korenal şəhərdəki qüvvələrlə kifayətlənməyib, "tazədən ətraf

və əknafda vaqe olan erməni köylərindən yeni qüvvələri şəhərə cəlb etməyə əmr verdi". General bu hərəkətini guya müsəlmanların qəflətən ermənilər üzərinə hücum edəcəkləri ilə əsaslandırır. Bu səhnələrin canlı şahidi olan Məhəmməd ağa baş verən olayları ürək qanı ilə qələmə alaraq yazır: "İstədiyi qədər qüvvə cəm olduqdan sonra 1906-cı yılın avqust ayının 16 sənəsində həmin qüvvələrin kənara çəkilməsinə əmr verdi. Çin sahibləri isə təhti-komandanlarında olan əsakiri, pürçinmisal baği-vətənin ətrafına çəkdi. Top batareyaları duman, çən kimi şəhərin başı üstünü kəsdi. Çar ətrafdan* badi-sitəm gülşəni-vətənə əsdi. Sülh silaha mübəddəl oldu. Topların ağzından çıxan vəhşətli və dəhşətli bərq və sədalar rədü bərqasa gül üzlü qadınların xovflu kökslərini qana döndərib rəngi-rüxsarlarını bərgi-xəzantək saraldaraq vücudlarına rəşə saldı. Şarapinlərdən çıxan qurşunlar baharın qara buludlarından yağan yağmur və dolular kimi biçarə əhalinin bağ və həyətlərinə tökülməyə başlandı. Əsləhələrdən çıxan tüstülər ahü naləyi-yetiman kimi göylərə sarı ucalmağa üz qoydu. Biixtiyar cocuqlar, ixtiyar erkək və qadınlar yekdigərin damənindən yapışaraq kəndilərini vərteyi-həlakətdən bir sahilə çəkilməgə başladılar" (4. 13[b]).

Məhəmməd ağa ürək parçalayan bu səhnələri bir seyrçi kimi deyil, onun iştirakçısı kimi təsvir etdiyi üçün oxucuda onun reallığına şübhə yaranmır. Şair məzlum insanların düçar olduqları fəlakətləri ürək ağrısı ilə təsvir etdiyi kimi, onun əsl səbəbkarı olan çarı və onun qaniçən generallarını nifrətlə damğalayır: "Mahəsəl kəlam, məzlumlar qanına susuzduyan korenal məqsudü məramına yetdi. Birinci müharibədə canavartəbiət olan korenal Baranovski şəhərdə açdığı insan qəssabxanasında biçarə camaatı qırdırıb, vəzifəsini əda etdi. Başqa yerlərdə əkdikləri acı səmərli ədavət toxumlarından istədigi qədər mənim sevgili vətənimin bağında əkib, qan ilə suvarıb getdi, bu ümid ilə ki, gələcəkdə əkdigi acı toxumlardan özü və amiri olan çar şirin bar yeyəcəkdir" (4. 14[b]).

Vətənin, xalqın bu ağır günlərində Məhəmməd ağa əməli fəaliyyətə keçərək özündən qat-qat güclü düşmənlə mübarizə meydanına atılır. İlk növbədə etibarlı, vətənpərvər insanların axtarışına çıxır. Qısa müddət ərzində istədiyinə nail olaraq gizli təşkilat yaradır: "Haman gecənin sabahından başlayıb başqa yoldaşlar aramaq təşəbbüsündə bulunduq. Hər vətənpərəstə yanaşıb müxtəsər söz açdıqca bizdən həzər qılıb da qəbulundan imtina etdi. Çox cüstcudan sonra bir neçə nəfər qoçəhmədli Əbdül kimilərinə rast gəlib mətləbimizi onlara andırdıq. Bizim fikrimizə şərik olmağa söz verdilər. Məşədi Əkbər bəy Zöhrabbəyovun xanəsində məxfi surətdə məsləhət və məşvərət etməgə məşğul olduq. Məşvərət zamanı sahibxanənin məxdumu Mustafa bəy nam ki, bizim yoldaşlara mənsub idi, söylədi ki, bir ay bundan əqdəm Badkubədə idim. Orada Məhəmmədxan Təkinski ilə görüşdükdə bana söylədi ki, nə gözəl olardı ki, vətəni təhlükədən xilas etmək üçün bir cəmiyyət təşkil edilmiş olaydı. Əgər məsləhət görsəniz ona da məlumat verək. Rüfəqa isə bu əmrə razılıq göstərdilər, fövrən ona xəbər verdik. Teleqram vasitəsilə üç günə kimi gəlməsini məlum etdi. Üçüncü gün oldu, Məhəmmədxan, Cəmil bəy namında bir türkiyəli və Şamxal Tarqevski familiyada dağıstanlı bir gənc zabit ilə bərabər Şişəyə təşrif gətirdilər. Məsləhət və məşvərətdən sonra bu qərara gəldik ki, bir neçə şəxsi dəxi bu cəmə daxil edək, haman cəmiyyət bir heyət şəklində Azərbaycanın təhlükəli olan biladı tərəfindən Türkiyə hökuməti sərkərdələrinin birinin nəzdinə getsinlər və ondan imdad tələb etsinlər. Ləhəza, Məhəmməd xanın fövri Badkubəyə qayıtması lazım göründü ki, orada inandığı əşxas ilə görüşüb onlara məlumat versin və onlardan Türkiyə hökuməti namına bir müraciətnamə alıb göndərsin və kəndisi Badkubədə bəzi mühüm işlər üçün qalsın, başqa rüfəqa isə pul tədarükünə düşüb də tezliklə şəhərdən bəhanə ilə çıxsınlar. [Onlar] yolların qorxulu olmasını nəzərə alaraq bir neçə qoçaq kimsənələr də üburgahda olan köylərdən götürüb Ərəs kənarında vaqe olan Məlikli kəndində cəmləşsinlər. Həqir isə elatdan damazdıq yığmaq bəhanəsilə Əziz xanın müqərrəb daruqəsi Bəylər nam ilə bərabər şəhridən çıxıb Gorus adlanan bəldəyə tərəf rəvanə olduq. Gorusa getməkdən məqsəd bu idi ki,

* Dörd tərəfdən.

Zəngəzurda seym tərəfindən hakim olan və həqirə ilə əyyami-tüfuliyyətdə siğeyi-axut oxudan Cəlil bəy Soltanovla görüşüb ma vəqqə əleyhi ona söyləyim, ondan müavinət xahiş edim. Müxtəsər, Cəlil bəy ilə görüşdüm, məqsudumuzu ona bəyan qıldım. Cəlil bəy isə xahişim müqabilində “səmən və taətən” (baş üstə) deyərək söylədi ki, bir-iki gün burada qalmalısınız. Çünki mənim bir az işim var, onu qurtarıb sizinlə bərabərlikdə Ağdama getməliyik. Zira ki, şimdi yay münasibəti ilə Zəngəzurun əksər sahibi-nüfuzu orada cəmdir. Onlar ilə göftgu etmək lazım gəlir. Qərəz, bir-iki gün Gorusda təvəqqü etdik, sonra müəzzəmileyhlə bərabər Avqana getdik. Orada olan əşxasın bəzisi ilə xüsusi görüşüb də onların tərəfindən Türkiyə hökuməti namına dəxi bir müraciətnamə tərtib etməgi tələb qılıb durdəst etdilər. Müxtəsər, Cəlil bəy Surxay namında kiçik bəradərini bu cəmə yoldaş verdi və kəndisi bizimlə bərabər Məlikli kəndinə və oradan İran tayında vaqe olan Alacücə adlanan məhəllə getməgi səlah gördü. Bundan ötəri ki, o yerin sahibi olan Qəhrəman xan ilə görüşüb Təbrizə kimi yolları təmin etmək lazım gəlirdi.

Xülasə, səhər tezdən Avqandan Məlikli köyünə rəvanə olduq və sözü bir yerə qoyduq ki, yolda kim bizə rast gəlib sual etsə nə yerə gedirsiz, ol vəqt cavab verməliyiz ki, gedirik Ərəs kənarına ac əhali üçün Tumanyandan bir neçə xəlvar buğda almağa.

Qərəz, həman bəhanə ilə yolları tey edib gəldik Məlikli kəndində Behbud bəy namın xanəsində mehman olduq. Müşarileyh mətləbdən xəbərdar oldu, kəndisi bu ümrəyə daxil edilməsini izhar etdi. Yoldaşlar tərəfindən məülmənəvinə qəbul olundu. Yol üçün para tədarükünə düşməsi rüfəqaya aşkar olduqda Cəlil bəy söylədi ki, bu yolun məxarici küllən və tərrən mənim və Əziz xanın, Mustafa bəyin, Məhəmməd bəy və Şamxal Tarqovskinin öhdəsindədir və kimsəyə burada pul xərc etməyə yol verilmir.”

Uzun və məşəqqətli səfərin gedişini qələmə alan şairin yazılarından məlum olur ki, səfər zamanı həyatları dəfələrlə təhlükə qarşısında qalsa da, onlar inadından dönməmiş, son nəticədə məqsədlərinə nail olmuşlar. Türkiyədə Azərbaycandan gəlmiş nümayəndə heyətini Xəlil paşa rəğbətlə qarşılayıb onlara ehtiram göstərdi. İlk görüşdən Xəlil paşa ilə Məhəmməd ağa arasında səmimi dostluq münasibəti yarandı. Gətirdikləri müraciət məktubu ona təqdim olundu və söhbət əsnasında məlum oldu ki, Türk dövləti indiki şəraitdə Azərbaycana kömək etmək iqtidarında deyil: “...paşa rüfəqanın bir neçəsini ismən bə ism gecədən bir saat keçmiş dövlətxanaya dəvət etdi. ... Bir qədər söhbət keçdi, sonra xəritə hazır oldu. Qafqaza getmək məsələsi müzakirə edilməyə başlandı. ... həqir cəsarət edib ərz qıldım ki, inşallah, səfər nə vaxt olacaqdır? Paşa isə: - Hala Qafqaza gəlmək üçün böyük bir qüvvə lazımdır – dedi. O qüvvə də şimdi mövcud deyil. ... bahara kimi vaxt lazımdır ki, o vaxtdan istifadə edib bir böyük qüvvə təşkil qılıb oraya göndərək. O vaxta kimi siz də bir neçə zabit ilə bərabər Qafqaza getməlisiniz ki, onlar oradan bəzi məlumat toplayıb buraya göndərsinlər. Və əlavə bu iş əgər məndən və yoldaşım şu alman komandanından asılı olmuş olsaydı hər aniyə tamam qüvvəni bu gün Bağdad cəbhəsindən çəkib, Qafqaza göndərərdik. Lakin bu iş asılıdır İstanbul və Berlindən” (4. 71[a]).

Məhəmməd ağa və yoldaşları yeddi ay yarımdan sonra İzzət və Müzəffər adlı iki türk zabiti və bir neçə nəfər əsgərlə Azərbaycana qayıtdırlar. Bu zabitlərin əsas vəzifəsi yerlərdə ümumi vəziyyəti öyrənib mərkəzə - Xəlil paşa və digər dövlət adamlarına çatdırmaq idi. İctimaiyyət arasında böyük nüfuzu olan Məhəmməd ağa zabitlərin vacib şəxslərlə görüşlərinin əsas təşkilatçısı idi. Bununla yanaşı, o həm də Qarabağda baş verən hadisələri nəzarətdə saxlayaraq yerli azərbaycanlı əhalinin qaçıb dağılmasının qarşısını alır, onların təhlükəsizliyinin təmin olunması üçün yuxarı təşkilatlarla sıx əlaqə saxlayırdı. Onun təşkilatçılıq qabiliyyətini yaxşı bilən Xəlil paşa əsarətdən çıxıb Azərbaycana gələrkən Məhəmməd ağa ilə görüşərək onu da özü ilə Zəngəzura aparır, onunla birlikdə “Həkəri və Bərgüşad adlanan çayların ətrafında vaqe olan köyləri bir-bir” gəzib, tezliklə üç min nəfərə yaxın qoşun düzəldirlər. Xəlil paşa Bakıya dəvət olunarkən, eləcə də Əsgəran, Şuşa, Xan kəndinə yürüş edərkən Məhəmməd ağa yaxın dost və məsləhətçi kimi həmişə onun yanında olmuşdur: “Səməd Paşa

və Əliağa Şıxlinski böyük bir qüvvə ilə Badkubədən gəldilər, Xəlil paşa ilə məən məsləhət edib də müharibə meydanı açdılar. Düşmənə qələbə çalındı və Əsgəran alındı. Düşmənlər həzimətə üz qoydu. Tamam qüvvə Şişəyə tərəf yürüş etməyə başladı. Həqir isə paşa ilə bərabər haman ordu içərisində məhsur olan Qalaya üz qoydum. Axşama bir neçə saat qalmış qoşun ilə Xan kəndinə varid oldum"(4. 88[a]).

Müctəhidzadənin şərti olaraq "Səfərnamə", yaxud "Yol qeydləri" adlandırdığımız 94 vərəqdən ibarət olan əlyazma burada sona çatır. Bizə məlum olmayan hansı səbəbdənsə şair Qarabağda, eləcə də onun ətrafında baş verən sonrakı hadisələri qələmə almır. Əlyazmanın 4a, 10a, 14b, 24a, 52a, 87b, 88a səhifələrində müxtəlif fotoşəkillər verilmiş, lakin onların əksəriyyətinin yalnız yeri qalmışdır. Bu şəkillərin şairin ailə üzvlərinə, yaxınları, qohum və dostlarına aid olması şübhə doğurmur. Aydın nəstəliq xətti ilə yazılmış bu əlyazmanın bəzi səhifələri cırılıb düşmüş, bəzən isə cümlə, eləcə də mövzu tamamlanmamış, fikir aydın izah olunmamışdır. Hiss olunur ki, müəllif əlyazma üzərində redaktə işi aparmamış və ümumiyyətlə, bir daha bu mövzuya qayıtmamışdır. Lakin göstərilən bu qüsurlarla yanaşı, əlyazmada həmin dövrdə baş verən hadisələrin real şəkildə əks olunduğunu nəzərə alaraq onu etimadlı mənbə hesab etmək olar.

Araşdırmalar göstərir ki, Məhəmməd ağa ən çətin anlarda belə Şuşani tərk etməmiş və ömrünün əksər hissəsini bu şəhərdə keçirmişdir. Şairin həyatına yaxından bələd olan Mirzə Xosrov Axundovun yazdığına görə Məhəmməd ağanin Şuşanin Dəmirçilər məhləsində yerləşən ikimərtbəli, on otaqdan ibarət olan mənzili hər zaman dostlarinin üzünə açıq olmuş, "...bəzən şairlər onun evinə cəm olub müxtəlif bədii söhbətlər edər və şeir deyərlərmiş"(6. 25-26).

Müctəhidzadəni hal-hazırda həyatda olan oğlu Hafizin ailələri haqqında verdiyi məlumata görə, atası iki dəfə evlənmişdir. Onun birinci həyat yoldaşının adı Humay xanım olmuş və ondan iki oğlan (Hüseyn və Məhəmməd), üç qız (Sürəyya, Xavər və Məryəm) övladı dünyaya gəlmişdir. Humay xanımın vəfatından sonra o ikinci dəfə evlənmişdir. Təsadüfən ikinci xanımın da adı Humay olmuşdur. Nədənsə, Məhəmməd ağa ona öz adı ilə deyil, Sultan deyə müraciət edərmiş. İkinci izdivacdan onun üç oğlu (Səid, Təhsin, Hafiz) və iki qız övladı (Zərifə və Nailə) dünyaya gəlmişdir. Hazırda şairin on övladından sağ qalanı yalnız Hafizdir.

**Nəticə**

*Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra Məhəmməd ağa uzun müddət Bakıda müəllimlik etmiş və 1945-ci ildə xüsusi göndərişlə Ağdama gəlmişdir. Şair ömrünün axırına qədər orada yaşamış və 1958-ci ildə vəfat etmişdir. Həyatının əksər hissəsini vətəninin azadlığı uğrunda gərgin mübarizəyə həsr edən Məhəmməd ağa sovet rejiminin sərt, təhlükəli və amansız qaydalarından ehtiyat edərək siyasi mübarizədən uzaqlaşdı və ömrünün qalan hissəsini müəllim, açıq fikirli din xadimi kimi yaşadı. Bu gün "... namuslu, qeyrətli, xalqını sevən bir şəxs" olan Məhəmməd ağa Müctəhidzadənin təkcə ədəbi irsinin deyil, müasir gənc-liyə örnək ola biləcək mübarizə dolu şərəfli həyat yolunun ətraflı şəkildə öyrənilməsi və qədirbilən xalqına çatdırılması da vacib məsələlərdən biridir.*

**Ədəbiyyat siyahısı:**

1.Müctəhidzadə M. "Riyazül-aşiqin", Bakı: 1995.
2. Qarayev N. XIX əsr Azərbaycan ədəbi məclisləri. Bakı: 2012.
3. Poetik məclislər. (Toplayan və tərtib edəni N. Qarayev). Bakı: 1987.
4. AMEA ƏYİ, Fr. 1644.
5. Nəvvab M.M. "Təzkireyi-Nəvvab" (əksi əlifba ilə) Bakı: 1913.
6. Axundov M. X. Ömürdən səhifələr. Bakı: 1992.

**Керимов Рагуб**

**О жизни и творчестве Мухаммед аги Муджтахидзаде**

Талантливый азербайджанский поэт конца XIX-первой половины XX вв. Мухаммед ага Мирза Седрай оглу Муджтахидзаде прожил долгую, интересную жизнь. Автор статьи на основе ранее неизученных первоисточников исследует литературное наследие поэта, говорит о его героической деятельности как защитника родины от захватчиков в начале XX века.

В статье всесторонне изучаются поэтические произведения Мухаммед аги, его положение в общественной жизни. Автор приходит к заключению, что Мухаммед ага Муджтахидзаде пишущий свой стихи под псевдонимом «Мюштари» был истинным патриотом своей родины. Именно под его непосредственным руководством в тяжелые дни для народа от имени азербайджанцев была послана в Турцию делегация для получения помощи. В предоставлении от имени азербайджанского народа турецкому государству обращения М. Муджтахидзаде принимал непостредственные участвие.

***Ключевые слова:*** *Муджтахидзаде, Риязул-ашигин, Карабах, Шуша, Халиль Паша*

**Karimov Raqub**

**On the life and work of Muhammed Aga Mujtahidzadeh**

A talented Azerbaijani poet of the late XIX-first half of the XX centuries. Muhammed aga Mirza Sedrai oglu Mujtahidzadeh lived a long, interesting life. The author of the article, on the basis of previously unexplored primary sources, explores the literary heritage of the poet, talks about his heroic activity as a defender of the motherland against invaders in the early 20th century.

The article comprehensively studies the poetic works of Muhammed Aga, his position in public life. The author comes to the conclusion that Muhammed aga Mujtahidzadeh, who writes his poems under the pseudonym "Myushtari" was the true patriot of his homeland. It was under his direct leadership that a delegation was sent to Turkey on behalf of the Azerbaijanis on difficult days for the people. M.Mujtahidzadeh accepted direct participation in providing the Turkish state on behalf of the Azerbaijani people to the Turkish state.

***Key words:*** *Mujtahidzadeh, Riyazul-ashiq, Garabag, Shusha, Khalil Pasha*

Redaksiyaya daxil olma tarixi: 21.06.2019
Çapa qəbul olunma tarixi: 05.07.2019

Filologiya üzrə elmlər doktoru, professor **Paşa Kərimov**
tərəfindən çapa tövsiyə olunmuşdur.